

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 46-47
(7283-7284) ❁ Bazar ertəsi, 6 iyul 2015-ci il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik




## M. A. Əliyeva «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 iyun 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə görə I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Heydər Əliyev Fondunun prezidenti, I Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir.***

***Dövlət başçısı bu yüksək ordeni Mehriban Arif qızı Əliyevaya I Avropa Oyunlarında qalib gəlmiş idmançılar, onların məşqçiləri, idman ictimaiyyətinin nümayəndələri və xarici tərəfdaşlarla görüş mərasimində təqdim etmişdir.***

***Mehriban Əliyeva çıxış edərək onun və idmançıların əməyini yüksək qiymətləndirdiyinə görə dövlət başçısına minnətdarlığını bildirmişdir.***

## «Bakı-2015» I Avropa Oyunları—17 gün bayram əhval-ruhiyyəsi, Avropa və Azərbaycanın səlnaməsinə qızıl hərflərlə yazılan tarix

Avropanın və Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan «Bakı-2015» I Avropa Oyunlarının bağlanış mərasimindən bir həftədən çox vaxt keçməsinə baxmayaraq, bu möhtəşəm tədbirin yüksək əhval-ruhiyyəsi hələ də nəinki Azərbaycanın və Avropanın, demək olar bütün dünyanın diqqətindən yayınmamışdır. Dünya idman ictimaiyyətinin nümayəndələri, analitiklər və ekspertlər yüksək səviyyədə təşkil olunan idman tədbirini inanılmaz həvəslə qiymətləndirirlər. Hətta bir çoxları uğurlu keçən bu tədbirlə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Azərbaycan xalqını ən xoş sözlərlə təbrik edirlər. Oyunların təşkilinə aparılan hazırlıq, açılış və bağlanış mərasimləri, yarışların yüksək səviyyədə, bir sözlə fantastik təşkili, Azərbaycan xalqının qonaqpərvərliyi, mədəni dəyərləri, Bakı şəhərinin gözəlliyi qonaqları, milyonlarla televiziya tamaşaçılarını hələ də heyrətə gətirməkdədir. Bağlanış mərasiminin bədii rəhbəri Ceyms Hedli demişdir: «Mərasim ənənəvi və müasir Azərbaycan mədəniyyətinin vəhdətini nümayiş etdirərək diqqəti gələcəyə yönəldir. Biz keçmişin müasir dövrə necə formalaşdırdığının və gələcəyə necə təsir göstərdiyinin şahidi oluruq. Müasir dövrün musiqisi, rəqsi, memarlığı milli ənənələrdən qaynaqlanır və yaranan ahəngdarlıq bizi ilhamlandırır. İlk dəfə olaraq Avropa Oyunları 50 ölkəni yarış meydanlarında bir araya gətirdi. Bu axşam oyunların uğurunu və idmançıların zəfərini qeyd edirik. Odlar yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır».

İlk Avropa Oyunlarında idmançılarımızın sözün əsil mənasında tarix yazmağını xüsusi qeyd etmək lazımdır. Onlar Rusiya müstəsna olmaqla 48 ölkəni geridə qoyaraq Azərbaycanı Avropanın ikincisi etdilər. Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Belarusiya, Ukrayna və sair digər ölkələri geridə qoyaraq 21 qızıl, 15 gümüş, 20 bürünc olmaqla 56 medal qazandılar. Bununla da idmançılarımız bir daha bütün dünyaya sübut etdilər ki, Azərbaycan idman ölkəsidir.

Bağlanış mərasimində çıxış edən Azərbaycanın birinci xanımı, «Bakı-2015» ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva bu tarixi, həm də möhtəşəm tədbirə dəstəyi olan bütün dövlətlərə, təşkilatlara, hər bir insana dərin təşəkkürünü bildirmiş, atletləri uğurlu çıxışlarına görə təbrik etmiş, son 17 gün hər zaman xatirimizdə qalacağını, nəsillərə qalacağını, tariximizin yadda qalan məqamı olacağını söyləmişdir.

Mərasimdə Avropa Olimpiya Komitəsinin sədri Patrik Hikki də çıxış edərək oyunların keçirilməsi üçün yüksək səviyyədə hazırlıq görülməsinə, bütün təşkilatı məsələlərin çox gözəl və vaxtında hazırlanmasına görə ölkə başçısı İlham Əliyevə və təşkilat komitəsinin sədri Mehriban Əliyevaya, təşəkkür və minnətdarlıq etdi, Avropa oyunlarının bugunumüzə, cələcəyimizə nələrin bəxş etdiyini vurğuladı və çıxışını, «sağ ol, Bakı, sağ ol, Azərbaycan» sözləri ilə bitirdi.

Sonra təntənəli bağlanış mərasimi başlanır. Bu mərasimin hazırlanmasına 20 ölkədən avadanlıq gətirilmiş, 1600-dən çox könüllü cəlb olunmuş, onların da əksəriyyəti azərbaycanlı idi.

**(Ardı 2-ci səhifədə).**